# Ali məqsədlərə xidmət etmək üçün xarakter lazımdır

## Milan Paniç: "Əvvəllər çox böyük tənqidlərə tuş gələn, qadağan olunan çox şey sonradan maraq doğurur"

**Müsahibim "Computech" nəşriyyatının rəhbəri və dizayneri, Serbiya Yazıçılar Birliyinin beynəlxalq əlaqələr assosiasiyasının baş kordinatoru Milan Paniçdir. Milan bəy Serbiya və digər ölkələrdə 500-dən çox kitabın dizayneri olub. Serbiyanın ədəbiyyat aləmində aktiv iştirak edir, festivalların keçirilməsində böyük zəhməti olan əsas əməkdaşlardan biridir.**

**- Siz bir naşir kimi dünya poliqrafiyasındakı son yeniliklərə açıqsınızmı?**

- Sözsüz ki, hər bir kəs beynəlxalq səviyyədə işləməkdən ötrü çalışdığı sahənin yenilikləri ilə mütəmadi tanış olmalıdır. Məsələn, mən kitabların dizaynı ilə məşğul olan bir adam kimi çalışıram ki, bu haqda bütün yenilikləri öyrənim. Mümkün qədər tətbiq edim. Yeni stillər, müəlliflərin seçimləri, arzuları, həmçinin də oxuculara maraqlı olan üz qabığı dizaynı haqda daha çox bilgilər əldə etməyə çalışıram. Biz buna da daha çox əhəmiyyət verir, bu cür məsələlərə çox böyük məsuliyyətlə yanaşırıq.

**- Nəşriyyatın daha çox maraq obyekti nədir? Yəni hansı prinsiplərə əsasən işləyir?**

- "CompuTech" nəşriyyatı öz prinsiplərinə sadiq qalır. Amma hər zaman da başqalarının da fikirlərini və düşüncələrini dinləyir. Belə desək mümkünsə, müəlliflə ümumi bir razlığa gəlirik. Və biz bununla qızıl ortanı tapmağa çalışırıq.

**- Serbiyada hansı müəlliflərin əsərlərini çap edirsiniz və kimlərə güzəştlər edirsiniz?**

- Biz serb müəlliflərini serblərə yox, dünyaya tanıtmaq istəyirik. Onsuz da serbləri serblərə tanıtmaqla məşğul olan böyük sayda nəşriyyatlar var. Və eynən belə biri, düşünürəm ki, heç kimə lazım deyil. Biz serb yazıçılarını başqa dillərə tərcümə edirik, bəzən də üz qabığı dizaynını da hazırlayırıq. O əsərləri bizim əməkdaşlar çap edir. Biz daha çox başqa ölkələrin yazıçılarını tərcümə və çap edirik.



**- Bütün dünyada indi yüngül ədəbiyyat, belə deyək, bulvar ədəbiyyatı çoxalıb. Serbiya ədəbiyyatında vəziyyət bəs necədir?**

- İndi oxşar vəziyyət, demək olar ki, hər yerdədir. Serblər də bundan kənarda deyil. Razılaşmaq lazımdır ki, bu, indi dünya trendidir. Həyatda hər bir şeyin sonu olduğu kimi, bu trendin də bir sonu var, əlbəttə ki. Ümumi götürsək, əvvəllər çox böyük tənqidlərə tuş gələn, qadağan olunan çox şey sonradan maraq doğurur. Lakin bu dalğada sözün əsl mənasında keyfiyyət də olmasa uzağa gedə bilməzsən. Bir də ki zaman hansı əsərlərin gələcək nəsillərin diqqətinə layiq olduğunu və həm də bunun səbəbinin də nə olduğunu mütləq göstərəcək. Mən hər halda, həmin bu bulvar ədəbiyyatı, məşhur müğənnilərin, aparıcıların, aktyorların avtobioqrafiyalarının uzun müddət oxucuların maraq dairəsində qalacağına inanmıram. Hesab edirəm ki, bugünkü nəşriyyatların qalmaqal yaradan, narahatlıq törədən, etiraz doğuran əsərlərdənsə, doğrudan da, ruhlarda müsbət dəyişiklik yaradan əsərləri ortalığa çıxartmaq üçün, zamanımızda yaşayıb-yaradan, gələcək klassikləri axtarıb tapmaq üçün cəsarəti çatmır. Və bunu da əlavə edim ki, ali məqsədlərə xidmət etmək üçün xarakter lazımdır.

**Söhbətləşdi: Xanım Aydın**

Kaspi 2019.- 14-16 sentyabr.- S.16.